

*Vahid SSLİOĞLU*

## ÖMRÜ HALAL YAŞA...

Əslini unutma, hər gün sal yada,
Açmaynan sirrini nə dosta, yada.
Boş yerə xərcləmə ömrü dünyada,
Ömrü halal yaşa, ömrü düz yaşa.

Çətinə düşsən də, dara düşsən də,
Yağışa düşsən də, qara düşsən də,
Çəkilməz əzabla sən görüşsən də,
Hər dərdə, kədərə, qəmə döz, yaşa.

Yaxşı ol, yaxşılıq etməyə çalış,
Heç kimə əl açma, zəhmətə alış.
Hər kəsin qəlbini duymağa çalış,
Hər kəsin qəlbinə sal bir iz, yaşa.

Ay Vahid, həyatda bir ölüm haqdı,
Haqq sözü zülmətdə yanan çıraqdı.
Bu fani dünyada hamı qonaqdı,
İstər əlli yaşa, istər yüz yaşa.

## DƏYMƏZ

Haqqa üz çevirək, haqqı sevərək,
Yaxşılıq eləyək, yaxşı iş görək.
Həyatı gənclikdə duyasan gərək,
Qocalıq vaxtında qanmağa dəyməz.

Vicdanın ləkəsi heç vaxt silinməz,
Namusla, qeyrətlə mərcə gəlinməz.
Adam var, kötükdən fərqi bilinməz,
Kötük adamları yonmağa dəyməz.

Kişi meydanından ölsən də qaçma,
Qapını hər kəsin üzünə açma.
Heç zaman yadlara qəlbini açma,
Yadlardan bir çöp də ummağa dəyməz.

Hər ömrün baharı şaxta, qar olar,
Gen dünya başına bir gün dar olar.
El üçün ağlayan gözlər kor olar,
Ay Vahid, el üçün yanmağa dəyməz.

## QAYITDIM

Yenə yolum düşdü doğma ellərə,
Yenə o dağları öpüb, qayıtdım.
Sığal çəkdim çiçəklərə, güllərə,
Yaşıl yaylaqları öpüb, qayıtdım.

Gözlərim bulud tək doldu sevincdən,
Hönkürüb ağladım soruşma nədən.
Dizimi torpağa söykəyərək mən,
Şirin bulaqları öpüb, qayıtdım.

Ocaqda soyuyan közümü gördüm,
Hayana baxdımsa özümü gördüm.
Hər qarış torpaqda izimi gördüm,
Gözəl oylaqları öpüb, qayıtdım.

Yenə doğmalarla Vahid görüşdü,
Ay Allah, bu görüş yerinə düşdü.
Ağacdan çiynimə bir yarpaq düşdü,
Bütün yarpaqları öpüb, qayıtdım.

## YAXŞIDI

Sən haqqın yanında həmişə dayan,
Qoy haqqın nuruna bələnsin hər yan.
Tamahkar adamdan, namərd adamdan,
Yalan danışandan qaçsan yaxşıdı.

Sabahı düşünüb, keçmişi anıb,
Yadı da özünə sən doğma sanıb,
Xalq üçün çalışıb, xalq üçün yanıb,
Xalqın yaddaşına köçsən yaxşıdı.

Bu soyuq küləklər əsir haradan?
Çəkir yüz sınağa bizi Yaradan.
Çirkabı təmizdən, ağı qaradan,
Yaxşını yamandan seçsən yaxşıdı.

Qaçan olmayıbdı hələ fələkdən,
Ömrümüz ələnir, keçir ələkdən.
Namərdlə oturub şərab içməkdən,
Dostdan zəhər alıb içsən yaxşıdı.

## HƏR ÜRƏK SIZLAYAN KAMANDI, VAHİD

Hər şeyi dərd edib can dağlama sən,
Dəniz tək kükrəyib cox çağlama sən.
Heç vaxt bu dünyaya bel bağlama sən,
Bu dünya fanidi, yalandı Vahid.

İllər üstümüzdən yel kimi keçir,
Bizim ömrümüzü ot kimi biçir.
Torpaq insanı da su kimi "içir",
Həyat cox qısadı, bir andı, Vahid.

Dara çəksələr də sözündən qaçma,
İsti ocağından, közündən qaçma.
Hər yoldan keçənə qəlbini açma,
Heç kimə inanma, amandı Vahid.

Mərdi qova-qova namərd eləmə,
Hər şeyi özünə sən dərd eləmə.
Heç kimi incidib qəmə bələmə,
Hər ürək sızlayan kamandı, Vahid.

## ÜRƏYİMDƏ

Dünyanın hər dərdi gözümə çökər,
Sənin həsrətini mən tək kim çəkər?
Qəfil soyuq düşsə, üşüsən əgər
Səni isidərəm öz ürəyimdə.

Daha can evimdə küləkdi əsən,
Məni öldürəcək bu eşq deyəsən.
Xoşbəxt olmaq üçün doğulmusan sən,
Axtar xoşbəxtliyi, gəz ürəyində.

Tanrı dözüm verir hər sevənə,
Mənim taleyimi gəl, düşün yenə.
İndi ki, gedirsən, eh, daha sənə
Yoxdu deyiləsi söz ürəyimdə.

Bu yazıq Vahidi salmısan bəndə,
Dünya dağılmaz ki, mən də sevəndə.
Hər dəfə uzaqdan səni görəndə
Qış gedir , gül açır yaz ürəyimdə.

## BİLİRƏM

Sənsiz gülüm nə çəkmişəm bilən yox,
Gözlərimdən biləcəksən - bilirəm.
Yetim uşaq kimi ağlayanda mən.
Göz yaşımı siləcəksən,- bilirəm.

Söylə, sağaldarmı dərman dərdimi?
Axı artırırlar hər an dərdimi.
Canımı göynədən-bu can dərdimi,
Tən yarıya böləcəksən,- bilirəm.

Sən gedəli dərd sinəmi dağlayıb.
Bu ayrılıq əl-qolumu bağlayıb.
Ağlayanda sən mənimlə ağlayıb,
Mən güləndə güləcəksən,- bilirəm.

Son ümidim, son gümanım sən idin,
Xoşbəxt günüm, xoşbəxt anım sən idin.
Hara getsən, harda olsan Vahidin
Sən yanına gələcəksən,- bilirəm.

## GƏLƏRƏM

Yağışa düşsəm də, qarda olsam da,
Daş altda qalsam da, darda olsam da,
Sən məni çağırsan, harda olsam da,
Qanad olub uça-uça gələrəm.

Canıma od saldın qara gözünlə,
Sən məni çəkirsən dara, gözünlə,
Könlümü oxşayan bircə sözünlə,
Uşaq kimi qaça-qaça gələrəm.

Hər gün uşaq kimi gözlərim dolar,
Bu eşqin həsrəti canımı alar.
Qorxuram ki, innən sonra gec olar,
Mən gələndə, axı, qoca gələrəm.

Eşq bağından Vahid çiçək dərdimi?
Çiçəklərdən bircə ləçək dərdimi?
Kəndir kimi düyün düşmüş dərdimi,
Sevincimdən aça-aça gələrəm.

## SƏCDƏGAHDI, VƏTƏNDİ

Dərdi canda az daşı,
Bir qurdala yaddaşı.
Yurdun hər qara daşı,
Səcdəgahdı, Vətəndi!

Bircə ovuc torpaq da,
Evdə yanan çıraq da,
Quru ot da, yarpaq da,
Səcdəgahdı, Vətəndi!

Gün çıxıb, batan yer də,
Babalar yatan yerdə,
Hər ocaq da, hər pir də,
Səcdəgahdı, Vətəndi!

Zirvəsi qarlı dağlar,
Şır-şır axan bulaqlar,
Harda ocaq yeri var,
Səcdəgahdı, Vətəndi!

## YAVAŞ – YAVAŞ

Yollar olmadı yarı,
İtirdim gözəl yarı.
Dağlar üstümə sarı,
Yeriyir yavaş-yavaş.

Xoşbəxtlik baxır gendən,
Su kimi axır gendən.
Ürəyimi içindən,
Dərd yeyir yavaş-yavaş.

Can köynəyim sökülüb,
Daha nəyim sökülüb?
Fələk üzümə gülüb
Gəl, deyir yavaş-yavaş.

Dolu döydü sevgimi,
Yetim qoydu qəlbimi.
Vahid yaz qarı kimi
Əriyir yavaş-yavaş.

## DAĞLAR

Hər bir günüm ilə dönüb,
Göz yaşlarım selə dönüb,
Çoxdan yanıb külə dönüb,
Ocağımda közüm, dağlar!

Dərdli könlüm qan ağlayır,
Neçə ildi yas saxlayır.
Yurd həsrəti can dağlayır,
Yaşla dolur gözüm , dağlar.

Nə çəkirəm kim nə bilər,
Kərpic-kərpic can sökülər.
Bir gün uçub ruhum gələr,
Gələmmərəm özüm , dağlar.

Qəm gölündə üzmək olmur,
Baş qaldırıb gəzmək olmur,
Ayrılığa dözmək olmur,
Sənsiz necə dözüm, dağlar?

## BİR GÜN

Fələk yaman amansızdı,
İnsafsızdı, imansızdı.
Neyləyəsən, vicdansızdı,
Canımızı alar bir gün.

Söylə hanı "can" deyənim?
Dərd ürəyə olub qənm.
Tükənərək ömrüm mənim
Çiçək kimi solar bir gün.

Ürək xəstə, can şikəstə,
Yaşamağa yox həvəs də.
Yarım gəlib qəbrim üstə
Saçlarını yolar bir gün.

Gəl, tərpətmə sarı simi,
Dərd göynədir ürəyimi.
Vahid yetim uşaq kimi
Böynübükük qalar bir gün.

